## 27 sentyabr -Ümumdünya Turizm Günüdür

Dünya ölkələrində olduğu kimi Azərbaycanda da hər il 27 sentyabr Ümumdünya Turizm Günü kimi qeyd olunur.

Turizmin müxtəlif növlərinin inkişafını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında 2007-2016-cı illər üçün turizmin inkişafına dair Dövlət Proqramı" qəbul edilmişdir. Dövlət Proqramının əsas məqsədi turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsini, turizmin ölkə iqtisadiyyatının öncül istiqaməti kimi tanınmasını və bu sahənin səmərəliliyinin artırılmasını təmin etməkdir.

Naxçıvan Muxtar Respublikasının əlverişli coğrafi mövqeyi, flora və faunasının müxtəlifliyi və zənginliyi, mədəni-tarixi irsi, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələri turizmin inkişafı üçün böyük perspektivlər açmışdır.

Muxtar respublikada qədim dövrlərin yadigarı olan tarixi abidələr - Möminə Xatın, Qarabağlar, Yusif ibn Küseyir və Gülüstan türbələri, əsrlərdən bəri qorunub saxlanılan tarixi yaddaşı özündə əks etdirən qədim insanların ilk məskunlaşdığı yaşayış yeri Gəmiqaya, bu yerlərin məğlubedilməzliyinin simvolu olan Əlincə Qalası, möhtəşəmliyi ilə seçilən İlandağ, misilsiz təbiət abidələri olan Göygöl, "Əshabi-Kəhf Ziyarətgahı" Dini -Mədəni Abidə Kompleksi və yüzlərlə sənət əsərləri Naxçıvan diyarının əsas turizm potensialıdır.

Son illər ərzində muxtar respublikada beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilmiş, Duzdağ fizioterapiya xəstəxanası və Darıdağ arsenli su müalicəxanası müasir tələblər səviyyəsində yenidən qurulmuşdur.

Tarixi abidələrin bərpa olunaraq gələcək nəsillərə çatdırılması məqsədilə Naxçıvan şəhərində Möminə Xatın türbəsinin, Şərur və Ordubad rayonlarında tarixi Buzxana abidələrinin, Culfa rayonunda Əlincəqala tarixi

abidəsinin və onlarla digər abidələrin bərpası başa çatdırılmışdır. Bu istiqamətdə cari ilin ötən dövrü ərzində Şərur rayonunun Xanlıqlar kəndində İmamzadə tarixi abidəsinin, Culfa rayonunda Gülüstan türbəsinin bərpası başa çatdırılmış, Naxçıvan şəhərdaxili turist marşrutu fəaliyyətə başlamışdır. Bundan əlavə, Kəngərli rayonunda Qarabağlar Türbə Kompleksinin bərpası hazırda davam etdirilməkdədir.

Ümumilikdə, son dövrlər ərzində muxtar respublikada infrastrukturun yenilənməsi, müasir avtomobil yollarının salınması, ən əsası əhalinin səmərəli məşğulluğunun təmini, bu qədim diyarda insanların qurub yaratmaq arzusunu artırmış, muxtar respublikanın bütün yaşayış bölgələri müasirliyə qovuşmuşdur. Dinamik inkişafla yanaşı, muxtar respublikanın təhlükəsiz region kimi tanınması da buraya gələn turistlərin sayının artmasına müsbət təsir göstərmişdir. Belə ki, əgər 1995-ci ildə muxtar respublikaya 38,6 min nəfər turist gəlmişdirsə, bu göstərici 2006-cı ildə 93,9 min nəfər, 2010-cu ildə 287,6 min nəfər, 2015-ci ildə 389,8 min nəfər olmuşdur. 2015-ci ildə muxtar respublikaya gələn turistlərin sayı 1995-ci illə müqayisədə 10 dəfə artmışdır.

Cari ilin səkkiz ayı ərzində muxtar respublikaya 234363 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 4,5 faiz çoxdur.

Bu gün də muxtar respublika haqqında dolğun məlumatları dünya ictimaiyyətinə çatdırmaq, turizmi iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirmək məqsədilə ardıcıl tədbirlər aparılmaqdadır.